Не удается отобразить связанный рисунок. Возможно, этот файл был перемещен,...

# Azərbaycan Respublikasının Mülki Müdafiə sisteminin təkmilləşdirilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Mülki Müdafiə Qərargahının üzərinə düşən vəzifələrin Müdafiə Nazirliyi ilə sıx əlaqədə həyata keçirilməsini nəzərə alaraq və respublika mülki müdafiə sisteminin təşkilati quruluşu və idarəetmə mexanizminin təkmilləşdirilməsi maqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mülki Müdafiə Qərargahı bütün daşınar və daşınmaz əmlakı, tabeçiliyində olan qoşun hissələri və regional Mülki Müdafiə qərargahları ilə birlikdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, 3 ay müddətində respublikanın mülki müdafiəsi haqqında Əsasnamənin yeni la|yihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi fövqəladə hallarla əlaqədar Mülki Müdafiə Qərargahının üzərinə düşən vəzifələrin yerinə yetirilməsini Azərbaycan Respublikasının fövqəladə hallar üzrə Dövlət Komissiyası ilə qarşılıqlı əlaqədə həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 26 may 1997-ci il***

***№ 588***